# Oxşar və fərqli cəhətlər



Məktəbin direktoru
Mahmud Ağayev

**Füzulinin adı çəkiləndə bir hüzn hakim kəsilir nitqimizə. Sözlə ifadəsi çətin olan bir hüzn. Bu da təbiidir. Çünki Azərbaycanımızın bu gözəl guşəsinin böyük bir hissəsi hələ də düşmən tapdağı altındadır.**

Bu gün biz nə qədər Füzulidən uzaq olsaq da, qəlbimiz bir o qədər ona yaxındır. Sənə dəyərli olan bir şeyi itirəndə və ya sadəcə ondan ayrılanda, uzaqlaşanda onu daha çox qiymətləndirirsən.

Bəlkə də bir qədər gec anladıq dəyərimizi, qoruya bilmədik onu. Düşmən torpağı işğal etdi, oradakı sərvəti taladı, təsərrüfatı, abidələri yıxıb-dağıtdı, amma mədəniyyəti məhv edə bilmədi. Edə də bilməzdi. Xalqın mənəviyyatını, yaradıcılıq eşqini, yazıb-yaratmaq həvəsini əlindən almaq olarmı?! Əsla! Elə qədim zamanlardan da Qarabağ Azərbaycanın sənət, mədəniyyət beşiyi idi. Bu gün də o gerçəklik dəyişməyib. Yenə də qarabağlılar Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafında mühüm rol oynayırlar.



Məqaləmizdə Füzuli rayonundan söhbət açmağımız səbəbsiz deyil. Çünki haqqında danışacağımız məkan-Füzuli şəhər S.Şuşinski adına 1 saylı uşaq incəsənət məktəbidir. İlk baxışdan bir çox məktəblərdə hökm sürən səliqə-səhman, işə qarşı məsuliyyət hissi, ciddi nizam-intizam, savadlı müəllim heyəti, öyrəndikləri elmin incəliklərinə bələd olmağa çalışan şagird kollektivi burada da mövcuddur. Lakin bütün oxşar cəhətləri ilə yanaşı bu məktəb fərqlidir, özünəməxsusdur. Bildiyimiz kimi, rayonun işğalına qədər məktəb Füzulidə fəaliyyət göstərib, əhəmiyyətli nailiyyətlər əldə edib.

Hal-hazırda məktəb Bakıda məskunlaşıb. Füzuli şəhər uşaq incəsənət məktəbinin direktoru Mahmud Ağayevdir. O, təcrübəli mədəniyyət işçisidir. Öz işinin məsuliyyətini aydın dərk edən Mahmud müəllim rəhbərlik etdiyi kollektivlə xoş münasibət yaradıb. Mahmud müəllim həmçinin, məktəbin yetirmələrinə göstərdiyi qayğı ilə də diqqəti cəlb edir. O, uşaqlara ata nəvazişi göstərir, onların təhsildə üzləşdikləri çətinliklərlə, əldə etdikləri nailiyyətlərlə yaxından maraqlanır, onlara imkanı daxilində bütün lazımi köməkliyi göstərməyə çalışır. Mahmud müəllim üçün məktəbin hər bir şagirdi gələcəyin sənətkarıdır, ona görə də o, Azərbaycan sənətkarının yetişdirilməsi üçün bütün qüvvəsini səfərbər edib. Lakin məktəb yalnız təhsil müəssisəsi deyil, həmçinin təlim-tərbiyə ocağıdır. Bu məqsədlə məktəbdə uşaqların əxlaq tərbiyəsinin inkişafı istiqamətində mütəşəkkil addımlar atılır, kiçik qüsur, xırda anlaşılmazlıq belə nəzərdən qaçırılmır.



Füzuli şəhər uşaq incəsənət məktəbinin yetirmələrinin sorağı ayrı-ayrı mədəniyyət ocaqlarından gəlir. Belə ki, onlar rayon və respublika tədbirlərində fəal iştirak edir, tarixi əlamətdar günlərin qeyd edilməsi ilə bağlı rəngarəng tədbirlər keçirirlər.

Məktəbin uğurlu inkişaf yolu keçməsində Füzuli Rayon Mədəniyyət Şöbəsinin müdiri Elman Məmmədovun rolu böyükdür. Onun məktəbə göstərdiyi qayğı və diqqət danılmazdır. Məhz onun sayəsində məktəbin qarşısında duran bir sıra çətinliklər dəf olunmuş, bir çox nailiyyətlər əldə olunmuşdur. Odur ki, məktəb kollektivi ondan çox razıdır və gələcəkdə də Elman müəllimin himayəsi altında mühüm uğurlara imza atacaqlarına inanırlar.

Söhbət zamanı Mahmud müəllimdən öyrəndik ki, bu təhsil ocağı 1957-ci ildə uşaq musiqi məktəbi kimi yaradılıb. 1985-ci ildən incəsənət məktəbi tək fəaliyyət göstərir. Uğurların əldə olunmasında Zahid Ağayev, Bəhruz Əliyev, Asudə Allahverdiyeva, İbrahim Əliyev, Mahir Əliyev, Tamara Əliyeva və başqa qabaqcıl müəllimlərin xüsusi zəhmət payı vardır.

**Günel ƏKBƏROMA**